# Yollar yenidən qurulur

Ölkə başçısının tapşırıq və sərəncamları əsasında yol infrastrukturu-




nun yenidən qurulması ilə bağlı cari ildə tərtib edilmiş tədbirlər planına uyğun olaraq Qəbələ rayonunda yolların və küçələrin əsaslı təmiri işləri davam etdirilir.

Bu günlərdə şəhərin Heydər Əliyev prospektində asfaltlaşdırma işlərinə başlanılmışdır.

10 nömrəli Yol İstismarı MMC-dən verilən məlumata görə əsaslı təmir işlərinin qısa müddət ərzində başa çatdırılması nəzərdə tutulmuşdur.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

# Qəbələdə vətəndaşları qəbul edəcəklər

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.*

*Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyul ayının 23-də "Azərsu" ASC-nin sədrinin müavini Etibar Məmmədov, 26-da isə Energetika nazirinin müavini Samir Vəliyev Qəbələ və ətraf rayonların sakinlərini şəhərimizdə qəbul edəcəklər.*

# Turizm potensialı ilə tanışlıq

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Hindistanın və Rusiyanın işgüzar turizm sahəsini təmsil edən şirkətlərlə həmin sahə üzrə ixtisaslaşmış yerli turoperatorlar arasında görüş keçirilib.

Dehli və Moskva şəhərlərini təmsil edən şirkətlərin əsas turizm bölgələri ilə ətraflı məlumatlandırılması üçün digər turizm zonaları ilə yanaşı Qəbələdə yerləşən hotellərə, turizm, xidmət obyektlərinə və tarixi məkanlara da səfərləri təşkil edilib.

Səfərlərin əsas məqsədi regionların turizm potensialının tanıdılması, təcrübə mübadiləsinin aparılması və ölkəmizdə keçirilən beynəlxalq səviyyəli işgüzar görüşlərin sayının artırılmasıdır.

**"Qəbələ"**

# Strateji inkişaf planı hazırlanıb

Qəbələ Dövlət Peşə Tədris Mərkəzi üçün hazırlanan strateji inkişaf planının təqdimatı keçirilib.

Strateji inkişaf planı pilot peşə təhsili müəssisəsinə müstəqil inkişaf yollarını müəyyənləşdirməyə, seçilmiş biznes ideyaları üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla büdcədənkənar maliyyələşməyə nail olmağa imkan yaradacaq. Strateji inkişaf planlarının hazırlanması zamanı müəssisənin insan resursları, mövcud infrastrukturu, maddi-texniki bazası, eləcə də regionun xüsusiyyətləri və dövlətin iqtisadi inkişaf istiqamətində prioritet hesab edilən sahələr nəzərə alınıb.

Strateji inkişaf planının gələcəkdə digər peşə təhsili müəssisələri üçün əlçatanlığını təmin etmək məqsədilə "Strateji inkişaf planlarının hazırlanması təlimatı" da tədbir iştirakçılarına təqdim olunub.

**"Qəbələ"**

# Mədəniyyət xəbərləri

## Oxuculara səyyar kitabxana xidməti göstərilib

Rayon mərkəzi kitabxanası bu günlərdə "Mütaliə həftəsi" çərçivəsində oxuculara səyyar kitabxana xidməti təşkil edib.

Burada həyata keçirilən iş üsullarından biri də yaşlı və əlil insanlara evdə kitabxana xidmətinin göstərilməsidir.

Kitabxanada səyyar xidmət işinin təşkil edilməsi üçün yaradılan işçi qrupu mərkəzdə keçirilən tədbirlərlə yanaşı kitabxana müəssisəsi olmayan yaşayış məntəqələrində də bu səpkili tədbirlərin keçirilməsində xüsusi fəallıq göstərir.

"Yeni kitablar" adlı növbəti belə səyyar tədbirin "ASAN xidmət" mərkəzində keçirilməsi nəzərdə tutulub.

**Gülnarə QARAYEVA,**
**kitabxananın işçisi.**

* * *

## Sərgi yaradılmışdır

Rayon mərkəzi kitabxanasında "7 iyul Ağdərə rayonunun işğalı günüdür" adlı sərgi təşkil olunmuşdur.

7 iyul 1993 - cü il tarixdə ilhaq olunan Ağdərə rayonunun işğalından 26 il ötməsi ilə bağlı hazırlanan sərgidə tarixi abidələrlə zəngin olan torpaqlarımız haqqında kitabxanaya gələn oxuculara və qonaqlara ətraflı bilgilər verilir. Zəngin informasiyaların və materialların toplandığı sərgidə fotoşəkillərə, kitablara və məqalələrə geniş yer ayrılmışdır.

* * *

## Məcburi köçkünlərin qonağı olmuşlar

Bu günlərdə rayon mərkəzi kitabxanasının kollektivi 20 iyun Ümumdünya Qaçqınlar Günü münasibətilə məcburi köçkünlər üçün tikilmiş şəhərcikdə olmuş, sakinlərin bir qrupu ilə görüşmüşlər.

Biblioqrafik maarifləndirmə xarakteri daşıyan görüş zamanı kitabxana işçiləri MKS-yə yeni alınan nəşrlər və maraqlı kitablarla köçkünləri tanış etmişlər.

Qeyd edək ki, şəhərcikdə məskunlaşan məcburi köçkünlərə xidmət göstərmək üçün burada mərkəzi kitabxananın 2 nömrəli filialı da yaradılmış və fondu çoxlu sayda maraqlı kitablarla zənginləşdirilmişdir.

**Xalidə MƏMMƏDOVA,**
**kitabxananın işçisi.**

# Gənc arxeoloq alimlərin və tələbələrin yay məktəbi təşkil olunub

Qəbələdə AMEA-nın İctimai Elmləri Bölməsinin və Gənc Alim və Mütəxəssislər Şurasının birgə təşkilatçılığı ilə




gənc arxeoloq alim və tələbələrin beynəlxalq yay məktəbi təşkil olunub.

Tədbirin açılış mərasimində fizika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov akademiyada gənc alim və mütəxəssislər üçün yay və qış məktəblərinin təşkilinin ənənə halını aldığını bildirib.

Famin Salmanov hazırda koreyalı arxeoloqların Qəbələdə tədqiqatlar apardıqlarını və bunun yay məktəbinin iştirakçıları üçün təcrübə baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin "Qəbələdə arxeoloji tədqiqatlar və ilkin nəticələri" mövzusunda məruzəsi dinlənilib. O, çıxışında Qafqaz Albaniyası və onun paytaxtı olmuş Qəbələ haqqında yazılı mənbələr, burada aparılmış ilk arxeoloji tədqiqatlara dair məlumat verib, son illər rayonun Səlbir ərazisindəki qazıntılardan danışıb. Ərazidə aşkar olunmuş antik və orta əsr tikili qalıqları, su təchizatı sistemi, istehsalat qurğuları və qəbirlər gənc alimlərin böyük marağına səbəb olub.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Sahibkarları maarifləndiriblər

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) "KOB könüllüləri" Vəndam qəsəbəsində mikro və kiçik sahibkarları, fermerləri



agentliyin fəaliyyəti, göstərdiyi xidmətlər barədə məlumatlandırıblar.

İctimai-iaşə obyektləri, tikiş sexləri, mebel və inşaat materialları mağazalarında, fərdi təsərrüfatlarda olan "KOB könüllüləri" sahibkarları biznesin qurulması və inkişafı, hüquq və mənafelərinin müdafiəsi, özünüməşğulluq proqramına qoşulmaq kimi məsələlərlə bağlı Qəbələ-Oğuz "KOB Dostu"-na müraciət edə biləcəkləri barədə məlumatlandırıb, onlara maarifləndirici bukletlər paylayıblar.

Görüşlər Vəndam qəsəbəsində fəaliyyət göstərən sahibkarlar və vətəndaşlar tərəfindən maraqla qarşılanıb.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**